# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**№ 473**

**Bakı şəhəri, 11 dekabr 2019-cu il**

## "Sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsinin təmin edilməsi üçün aqrar sığorta orqanının müraciətinə əlavə ediləcək sənədlərin Siyahısı"nın təsdiq edilməsi haqqında

"Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 avqust tarixli 809 nömrəli Fərmanının 2.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsinin təmin edilməsi üçün aqrar sığorta orqanının müraciətinə əlavə ediləcək sənədlərin Siyahısı" təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərar 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş Naziri** **Əli Əsədov**

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2019-cu il 11 dekabr
tarixli 473 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsinin təmin edilməsi üçün aqrar sığorta orqanının müraciətinə əlavə ediləcək sənədlərin

# SİYAHISI

1. Sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsinin təmin edilməsi üçün aqrar sığorta orqanının müraciətinə aşağıdakılar əlavə edilməlidir:

1.1. sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsinə dair Məlumat (əlavə edilir);

1.2. hüquqi şəxslərlə bağlanılmış sığorta müqavilələrinin və ya onlara verilmiş sığorta şəhadətnamələrinin surəti;

1.3. hər bir sığorta müqaviləsi üzrə sığorta haqqının aqrar sığortalı tərəfindən ödənilməli olan hissəsinin ödənilməsi barədə sənədlərin surəti.

2. Bu Siyahının 1.2-ci bəndində göstərilmiş sənədlər “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələblərinə uyğun əldə edilə bilər.

“Sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsinin təmin edilməsi üçün aqrar sığorta orqanının müraciətinə əlavə ediləcək sənədlərin Siyahısı”na

**əlavə**

**Sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsinə dair**

**MƏLUMAT**

| Sıra №-si | Sığorta məhsulunun adı | Sığorta müqavilələri (sığorta şəhadətnamələri) | Sığortalının soyadı, adı, atasının adı (hüquqi şəxsdirsə, adı, təşkilati-hüquqi forması) | Sığortalının şəxsiyyət vəsiqəsinin FİN kodu (hüquqi şəxsdirsə, VÖEN-i) | Sığorta predmetinin yerləşdiyi ərazi (şəhər/ rayon/ kənd) | Sığorta müqaviləsinin bağlanıldığı tarix | Sığorta təminatının başlanğıc tarixi | Sığorta təminatının son tarixi | Sığorta məbləği | Hesablanmış sığorta haqqı | Ödənilmiş sığorta haqqı | Sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsi | Hesablanmış komisyon muzd | Xitam verilmiş sığorta müqavilələri üzrə | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | | | qaytarılmış ümumi sığorta haqqı | dövlət büdcəsinə qaytarılmalı olan sığorta haqqı |
| 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | 11. | 12. | 13. | 14. | 15. | 16. |